Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Elmi Şurasının 4 fevral 2025-ci il tarixli
iclasının (protokol № 4) qərarı ilə təsdiq
edilmişdir.

Rektor ________________ prof. C.M.Cəfərov

**Azərbaycan Dövlət Pedaqoji Universitetində**
**tələbələrin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında**

# Ə S A S N A M Ə

## 1. Ümumi müddəalar

1.1. Bu əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"na əsasən hazırlanmışdır və Azərbaycan Dövlət Pedaqoji Universitetində (bundan sonra – **universitet**) təhsilalanların ixtisas üzrə təcrübə (bundan sonra – **təcrübə**) keçmə qaydalarını tənzimləyir.

1.2. Bu əsasnamə universitetdə, onun filiallarında və nəzdində olan kollecində ali və orta ixtisas təhsili səviyyələrində təhsilalanların hamısına şamil edilir.

1.3. Təcrübə universitet, onun filialları və nəzdində olan kollecdə kadr hazırlığı aparılan müvafiq təhsil proqramlarının tərkib hissəsidir.

1.4. Təcrübənin məqsədi, həcmi və qiymətləndirilməsi müvafiq ixtisasın təhsil proqramı, təcrübənin növü, keçirilmə vaxtı və müddəti isə müvafiq ixtisasın tədris planı ilə müəyyən edilir.

## 2. Təcrübənin məqsədləri və növləri

2.1. Universitetdə təcrübənin məqsədləri aşağıdakılardır:

2.1.1. tələbənin təhsil müəssisəsində aldığı nəzəri biliklərini möhkəmləndirmək, dərinləşdirmək və onları praktiki bacarıqlar və səriştələrlə tamamlamaq;

2.1.2. tələbənin bilik, bacarıq və səriştələrini inkişaf etdirmək;

2.1.3. tələbəni müstəqil və səmərəli əmək fəaliyyətinə və akademik mühitə hazırlamaq, onun gələcək karyera inkişafına kömək etmək;

2.1.4. tələbəni təhsil aldığı ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, müasir istehsalat sahələri, qabaqcıl peşə təcrübəsi, iş üsulları, elmi tədqiqatlar və digər məsələlərlə tanış etmək;

2.1.5. tələbənin innovativ təlim və informasiya-kommunikasiya texnologiyaları ilə bağlı səriştələrini inkişaf etdirmək.

2.2. Universitetdə təcrübənin növləri aşağıdakılardır:

2.2.1. tədris təcrübəsi;

2.2.2. istehsalat təcrübəsi;

2.2.3. diplomqabağı təcrübə;

2.2.4. elmi-pedaqoji təcrübə;

2.2.5. elmi tədqiqat təcrübəsi.

## 3. Təcrübənin təşkili

3.1. Təcrübə kadr hazırlığının bir hissəsi olmaqla, təcrübə bazasında (müəssisə və təşkilatlarda, o cümlədən elmi müəssisə və təşkilatlarda, təhsil müəssisəsində və təcrübənin keçirilməsi üçün müvafiq şəraiti olan digər qurumlarda) təşkil edilir.

3.2. Tələbə universitetin tədris planında nəzərdə tutulan fənlərdən uğurla keçdiyi halda təcrübəyə buraxılır. Həmçinin tələbə digər fənlərdən 60 kredit və daha çox akademik borcu olduğu halda təcrübəyə

Scanned with CamScanner

buraxılmır.

3.3. Təcrübənin təşkil olunması üçün təhsil müəssisəsi tələbənin təhsil aldığı ixtisas sahəsinə uyğun olaraq təcrübə bazasını müəyyən edir. İstehsalat təcrübəsi üzrə təcrübə bazası müəyyən edilən zaman tələbənin də təkliflərinə baxılır.

3.4. Təcrübənin məqsədi, məzmunu və strukturu, təcrübə bazası və onun infrastrukturu, keçirilməsi formaları, müddəti və vaxtı, təcrübənin qiymətləndirilməsi üsulları və meyarları, təcrübə üzrə təlimin nəticələri təhsil müəssisəsi tərəfindən təsdiq edilən bu əsasnamə və təcrübə proqramları ilə müəyyən olunur. Tədris planında ixtisas üzrə bir neçə təcrübə növü nəzərdə tutulduğu halda, hər bir növ üzrə ayrıca təcrübə proqramı hazırlanır.

3.5. Tələbələrin təcrübəyə gedəcəkləri müəssisə və təşkilatların siyahısı təcrübə başlanmasına 4 ay qalmış, müəssisələrin tabeçilik prinsipi gözlənilməklə razılaşdırılır.

3.6. Tələbələrin ixtisas üzrə təcrübəsi əsasən yaz semestrində (fevral – may aylarında) təşkil olunur və may – iyun aylarında isə hesabatların hazırlanıb, ixtisas üzrə Təcrübə komissiyasında qəbulu (müdafiəsi) təmin olunur. Təcrübə ilə bağlı vaxt çərçivəsi həmin tədris ilinin akademik təqvimində qeyd olunur.

3.7. Təcrübənin təşkili zamanı aşağıdakı tələblər nəzərə alınmalıdır:

3.7.1. təcrübə bazasının tələbənin ixtisasına uyğunluğunun təmin edilməsi;

3.7.2. həyat və sağlamlıq üçün təhlükəsiz və zərərsiz təcrübə şəraitinin yaradılması;

3.7.3. tədris-öyrənmə və təcrübə arasında davamlı əlaqənin qurulması;

3.7.4. tələbənin yaradıcılıq və tədqiqat işlərində iştirakının təmin edilməsi;

3.7.5. tələbədə müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində bacarıqların artırılması;

3.7.6. tələbənin müasir texnologiyalarla, iş üsulları və digər yeniliklərlə tanış edilməsi;

3.7.7. peşəkar təcrübə rəhbərlərinin təyin edilməsi;

3.7.8. təcrübə bazasının infrastrukturunun əlilliyi olan tələbələr üçün müyəssər olması;

3.7.9. tələbələrin təcrübə bazasında məşğulluq imkanlarının nəzərə alınması.

3.8. Təcrübə təhsil müəssisəsindən kənarda keçirildiyi halda, təhsil müəssisəsi ilə təcrübə bazaları arasında müqavilə bağlanılır. Müqavilədə təcrübə keçənlərin sayı, təcrübənin tarixləri və saatları, tərəflərin hüquq və vəzifələri, təcrübə proqramında qoyulan tələblər, təcrübə rəhbərlərinə ayrılan saatlar və ediləcək ödənişlər, tələbələrin iş rejimi və s. əks olunmalıdır.

3.9. **Tədris təcrübəsi** - tələbənin nümunələr, prototiplər, maketlər, sınaqlar və s. vasitəsilə ilkin praktik vərdişlərə yiyələnməsinə yönələn təcrübədir. Tədris təcrübəsi ali təhsilin bakalavriat səviyyəsində və ya orta ixtisas təhsili pilləsində tələbələrin təhsil aldıqları təhsil müəssisəsinin təcrübə bazasında (tədris emalatxanalarında, laboratoriyalarda, təcrübə-sınaq poliqonlarında, elmi tədqiqat laboratoriyalarında, təhsil müəssisələrində və s.), həmçinin ixtisasın xüsusiyyətindən asılı olaraq, universitetdən kənarda təşkil edilir.

3.10. **İstehsalat təcrübəsi** - tələbənin təhsil müəssisəsində aldığı nəzəri biliklərini möhkəmləndirmək, dərinləşdirmək və onları praktiki bacarıqlarla tamamlamaq məqsədilə təhsil müəssisəsindən kənardakı təcrübə bazasında təşkil edilən təcrübədir. İstehsalat təcrübəsi tələbənin müraciəti əsasında təhsil müəssisəsinin yerləşdiyi şəhərdən (rayondan) kənarda və ya xarici ölkələrdə də keçirilə bilər və bu zaman təcrübə keçməyə nəzarət mexanizmi universitet tərəfindən müəyyən edilir.

3.11. **Diplomqabağı təcrübə** - müvafiq ixtisaslar üzrə təlimin yekun mərhələsi olmaqla, ali təhsilin bakalavriat səviyyəsində buraxılış işinin hazırlanması, bunun üçün lazımi məlumatların toplanılması, sınaqların düzgün aparılması və s. məqsədilə buraxılış işinin müdafiəsindən əvvəl təşkil edilən təcrübədir. Diplomqabağı təcrübəyə bütün nəzəri dərsləri və digər təcrübələri (tədris və (və ya) istehsalat təcrübəsini) müvəffəqiyyətlə bitirən tələbələr buraxılırlar. Diplomqabağı təcrübə tələbənin təhsil aldığı universitetdən kənardakı təcrübə bazasında və ya ixtisasın xüsusiyyətindən asılı olaraq universitetin təcrübə bazasında təşkil edilir.

3.12. **Elmi-pedaqoji təcrübə** - ali təhsilin magistratura səviyyəsində tələbələrin pedaqoji səriştələrinin formalaşdırılması məqsədilə təşkil edilən təcrübədir. Elmi-pedaqoji təcrübəyə bütün nəzəri dərsləri müvəffəqiyyətlə bitirən tələbələr buraxılırlar. Elmi-pedaqoji təcrübə tələbənin təhsil aldığı ali təhsil müəssisəsində (və ya razılaşma əsasında digər müvafiq ali təhsil müəssisələrində ) təşkil edilir.

3.13. **Elmi tədqiqat təcrübəsi** - ali təhsilin magistratura səviyyəsində magistrlik dissertasiyasının hazırlanması, bunun üçün elmi tədqiqatların nəticələrinin toplanılması və istifadə edilməsi məqsədilə dissertasiyanın müdafiəsindən əvvəl təşkil edilən təcrübədir. Elmi tədqiqat təcrübəsinə bütün nəzəri dərsləri

Scanned with CamScanner

müvəffəqiyyətlə bitirən tələbələr buraxılırlar. Elmi tədqiqat təcrübəsi həm tələbənin təhsil aldığı ali təhsil müəssisəsində, həm də həmin müəssisədən kənardakı təcrübə bazasında təşkil edilir.

3.14. Ali təhsilin bakalavriat səviyyəsində və orta ixtisas təhsili pilləsində istehsalat təcrübəsinin, ali təhsilin magistratura səviyyəsində elmi-pedaqoji təcrübənin, həmçinin magistrlik dissertasiyası hazırlayanlara münasibətdə elmi tədqiqat təcrübəsinin təşkili məcburidir.

3.15. Tələbənin təhsil aldığı dövrdə ixtisası üzrə əmək fəaliyyəti təhsil müəssisəsi tərəfindən kafedranın (fənn birləşmə komissiyasının) rəyi əsasında bu əsasnaməyə uyğun olaraq yaradılmış Təcrübə komissiyası tərəfindən təcrübə kimi tanına bilər. Bu zaman əmək fəaliyyətinin hər bir həftəsi 1,5 kreditə bərabər tutulur.

3.16. Tələbənin təcrübə müddətində beşgünlük iş rejimi üzrə həftəlik təcrübə keçməsi müddəti ən azı 20 saat olmalıdır. İxtisasın profilindən asılı olaraq bu müddət Universitet tərəfindən artırıla bilər.

3.17. Tələbənin təcrübə keçməsi barədə hesabat forması Universitet tərəfindən müəyyənləşdirilir. Hesabat forması təcrübə proqramının tələblərinə uyğun olmalı və orada tələbənin keçdiyi təcrübənin qısa məzmunu, apardığı təhlillər və gəldiyi nəticələr əksini tapmalıdır.

3.18. Tələbələr təcrübə zamanı təhsil müəssisəsi tərəfindən 10-15 nəfərdən ibarət yarımqruplara bölünə bilərlər. İxtisasın xüsusiyyətindən asılı olaraq (musiqi, incəsənət, idman və s.), qrupdakı tələbələrin sayı universitet tərəfindən müəyyənləşdirilə bilər.

3.19. Tələbələr tədris təcrübəsində 6 nümunə (bunlardan 2-si dərsin icmal nümunəsi ola bilər) və istehsalat tərübəsində isə 4 sınaq (bunlardan 2-si dərsin icmal nümunəsi ola bilər) dərsi keçməlidir. Bu bölgü, fakültə, filialın təqdimatı ilə, universitetdə təcrübə üzrə dərs yükünün ixtisaslar üzrə dəqiq bölgüsü haqqında rektorun əmri ilə dəyişə bilər.

3.20. Tələbənin təhsil aldığı təhsil müəssisəsi, təcrübə bazaları və tələbələr təcrübə prosesinin iştirakçılarıdırlar.

3.21. **Tələbənin təhsil aldığı təhsil müəssisəsi:**

3.21.1. ayrı-ayrı ixtisaslar üzrə kadr hazırlığının xüsusiyyətlərini və bu əsasnamənin tələblərini nəzərə alaraq, təcrübə komissiyalarını yaradır və onların tərkibini təsdiq edir;

3.21.2. müvafiq təcrübə proqramını, təcrübə gündəliyini, hesabat və rəy formasını hazırlayır və təsdiq edir;

3.21.3. təcrübə bazaları ilə müqavilə bağlayır, təcrübənin proqramını və qrafikini onlarla razılaşdırır;

3.21.4. təcrübə bazasının profilini nəzərə almaqla, ixtisası uyğun gələn və akademik heyətin təcrübəli işçiləri sırasından təcrübə rəhbəri təyin edir;

3.21.5. təcrübə keçirilən təcrübə bazasını, eləcə də tələbələri təcrübə proqramları ilə təmin edir;

3.21.6. təcrübə proqramına uyğun olaraq təcrübənin təşkilinə və keçirilməsinə nəzarət edir;

3.21.7. təcrübə bazası ilə bağlanılmış müqaviləyə uyğun olaraq digər vəzifələri həyata keçirir.

3.22. **Təcrübə bazaları:**

3.22.1. tələbələrin təcrübə keçməsini təşkil edir və keçirir;

3.22.2. ixtisas üzrə fənn müəllimləri arasından təcrübə rəhbərini təyin edir;

3.22.3. təcrübə proqramı əsasında tələbələrin təcrübə yerlərini müəyyən edir;

3.22.4. tələbələrin təcrübə bazasının infrastrukturundan istifadəsinə imkan yaradır;

3.22.5. tələbələri əməyin mühafizəsi və təhlükəsizlik texnikası, o cümlədən təcrübə bazasının daxili nizam-intizam qaydaları üzrə müvafiq təlimatlarla təmin edir və təcrübə müddətində istehsalat müəssisəsinin təqsiri üzündən baş verə biləcək bədbəxt hadisələrə cavabdehlik daşıyır;

3.22.6. təhsil müəssisəsi ilə bağlanılmış müqaviləyə uyğun olaraq digər vəzifələri həyata keçirir.

3.23. **Tələbə:**

3.23.1. təcrübə proqramına uyğun olaraq bilik, bacarıq və vərdişlərə yiyələnir;

3.23.2. təcrübə bazasının infrastrukturundan səmərəli istifadə edir;

3.23.3. təcrübə proqramında nəzərdə tutulan fəaliyyətləri təsdiq edilmiş qrafikə uyğun həyata keçirir;

3.23.4. təcrübə proqramına uyğun verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir;

3.23.5. təcrübə bazasının nizam-intizam qaydalarına riayət edir;

3.23.6. üzrsüz səbəbdən təcrübədən yayınma hallarına yol vermir.

3.24. **Təhsil müəssisəsi tərəfindən təyin olunan təcrübə rəhbərinin öhdəlikləri aşağıdakılardır:**

3.24.1. təcrübə bazası tərəfindən təyin olunan təcrübə rəhbəri (universitetin ixtisas üzrə fənn müəllimi) ilə birlikdə təcrübənin keçirilməsinə dair təcrübə gündəliyini hazırlayır;

Scanned with CamScanner

3.24.2. tələbələrin əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə cavabdehlik daşıyır;

3.24.3. tələbələrə fərdi tapşırıqların, təcrübə mövzularının müəyyənləşdirilməsində və onların təcrübə bazalarına təhkim olunmasında iştirak edir;

3.24.4. tələbələrə fərdi tapşırıqların yerinə yetirilməsində metodiki yardım göstərir və onlara tələb olunduğu halda buraxılış işi və magistr dissertasiyasının yazılması üçün lazım olan materialların toplanmasında kömək edir;

3.24.5. tələbələrə təcrübə proqramının yerinə yetirilməsi barədə hesabat tərtib edilməsində metodiki yardım göstərir;

3.24.6. tələbənin təcrübə üzrə qiymətləndirilməsində iştirak edir;

3.24.7. təcrübə müddətində tələbələrin davamiyyətinə nəzarət edir.

3.25. **Təcrübə bazası tərəfindən təyin olunan təcrübə rəhbəri:**

3.25.1. təhsil müəssisəsi tərəfindən təyin olunan təcrübə rəhbəri ilə birlikdə təcrübənin keçirilməsinə dair təcrübə gündəliyini hazırlayır;

3.25.2. tələbələri təcrübə bazasının müvafiq struktur bölmələri üzrə yerləşdirir;

3.25.3. təhsil müəssisəsi tərəfindən təyin olunan təcrübə rəhbəri ilə birlikdə tələbələrin təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə görə məsuliyyət daşıyır;

3.25.4. tələbənin təcrübə hesabatını imzalayır;

3.25.5. tələbələrin təcrübə müddətində fəaliyyətləri ilə bağlı rəy hazırlayır, rəsmiləşdirir və təhsil müəssisinə təqdim edir;

3.25.6. tələbənin təcrübə üzrə qiymətləndirilməsində iştirak edir;

3.25.7. tələbənin təcrübəyə davamiyyətinə nəzarət edir və təhsil müəssisəsinə məlumat verir.

## 4. Təcrübə üzrə tədris yükü və onun bölünməsi qaydası

4.1. Universitetdə təcrübə ilə bağlı tədris yükü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"na, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 03 sentyabr 2024-cü il tarixli KQ-12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Professor-müəllim heyətinin tədris işi vaxtı norması"na və bu əsasnaməyə əsasən tənzimlənir.

4.2. Universitetdə tədris təcrübəsinə, o cümlədən hesabatın yoxlanılması və qəbulu üzrə bir iş həftəsinə hər qrup üçün 5-10 saat müəyyən olunur.

4.3. İstehsalat və diplomqabağı təcrübəyə rəhbərlik, hesabatın yoxlanılması və qəbulu üzrə hər iş həftəsinə hər qrup üçün 3-5 saat müəyyən olunur.

4.4. Magistratura səviyyəsində elmi-pedaqoji təcrübəyə rəhbərlik, hər tələbə üçün 10 saat, elmi tədqiqat təcrübəsinə isə hər tələbə üçün 12 saat müəyyən olunur.

4.5. Magistratura səviyyəsində bir təcrübə rəhbəri 5 nəfərdən çox tələbənin elmi tədqiqat təcrübəsinə rəhbərlik edə bilməz.

4.6. Universitetin Elmi Şurasının qərarı ilə ixtisasın spesifikasından asılı olaraq tədris qrupu yarımqruplara bölünə və ya fənlər üzrə kreditlərin (saatların) miqdarı və tədris edilən fənnin məzmunu proqram üzrə eyni olduqda bir neçə tədris qrupu birləşdirilə bilər. Saatların qrup birləşməsi, qrup və ya yarımqrupa ayrılması Universitetinin Elmi Şurasının qərarı əsasında aparılır.

4.7. İstehsalat təcrübəsi zamanı təcrübə bazasından rəhbərliyə görə hər iş həftəsinə hər qrup üçün 3-5 saat müəyyən olunur. Bu saatın dəqiq miqdarı və ödənilməsi ilə bağlı məsələlər universitetlə təcrübə bazası arasındakı müqavilə ilə tənzimlənir.

4.8. Universitetdə təcrübə üzrə dərs yükünün ixtisaslar üzrə dəqiq bölgüsü rektorun yeni tədris ilinə dair tədris yükünün bölgüsü haqqında əmrində konkret göstərilir.

## 5. Təcrübənin qiymətləndirilməsi

5.1. Təcrübənin nəticəsinin qiymətləndirilməsi təhsil müəssisəsinin müəyyən etdiyi qiymətləndirmə meyarları əsasında təhsil müəssisəsi tərəfindən yaradılan, təhsil müəssisəsi, eləcə də təcrübə bazası tərəfindən təyin edilən təcrübə rəhbərlərinin də iştirak etdiyi təcrübə komissiyaları tərəfindən aparılır.

5.2. Qiymətləndirmə hər bir təcrübə növü üzrə ayrı-ayrılıqda aparılır. Qiymətləndirmənin üsul və

Scanned with CamScanner

meyarları, Təcrübə komissiyasının formalaşması və işinin təşkili bu əsasnamə əsasında, universitet Elmi Şurasının qərarı və rektorun əmri ilə müəyyən olunur.

5.3. Universitetdə bakalavriat səviyyəsində təhsil ixtisasları üzrə təcrübə üçün nəzərdə tutulmuş 30 kreditin 15-i (10 həftə) tədris təcrübəsi, 7.5-i (5 həftə) istehsalat (pedaqoji) təcrübəyə və 7.5-i isə təcrübə hesabatının hazırlanması, yoxlanması və ixtisas üzrə Təcrübə komissiyasında qəbuluna verilir. Digər ixtisaslarda isə 30 kreditin 21 krediti istehsalat təcrübəsinə, 9-u isə hesabatının hazırlanması, yoxlanması və ixtisas üzrə Təcrübə komissiyasında qəbuluna verilir.

5.4. Bakalaviat səviyyəsində təcrübə hesabatının qəbulu (müdafiəsi) üçün Təcrübə Komissiyası ixtisaslar üzrə dekanın təqdimatı ilə fakültənin ixtisas üzrə professor-müəllim heyətindən və ixtisas üzrə təcrübə bazasının nümayəndələrindən ibarət olmaqla rektorun əmri ilə yaradılır və təqvim ilinin sonunadək qüvvədə olur.

5.5. Təcrübə Komissiyaları fakültələrin təklif etdiyi və Tədris departamentinin təsdiq etdiyi cədvələ əsasən hər ilin iyun, sentyabr və dekabr aylarında tələbələrin təqdimatlarını dinləyərək kollegial yekun qərar verir.

5.6. Tədris və istehsahat (pedaqoji) təcrübəsinin qiymətləndirilməsi forma 2 -dəki qiymətləndirmə formasına əsasən təcrübə rəhbəri (müəllimi) tərəfindən həyata keçirilir.

5.7. Təcrübənin yekun qiymətləndirilməsi Təcrübə komissiyası tərəfindən aşağıdakı kimi həyata keçirilir:

**İxtisas üzrə Təcrübə komissiyasının qiymətləndirməsi: 0-100 baldır.**

Müddət – 5 həftə və kredit – 7.5.

| № | Qiymətləndirmə istiqaməti | Bal |
|---|---|---|
| 1. | Təcrübə hesabatının tərtibatına görə | 0-15 |
| 2. | Təcrübə hesabatının, məzmununun uyğunluğuna, qrammatik və stilistik savadlılığa görə | 0-15 |
| 3. | Təcrübə hesabatının müdafiəsi səviyyəsinə (məruzə, təqdimat, o cümlədən dərs nümunələrinin əsaslandırılmış müdafiəsinə və s.) görə | 0-50 |
| 4. | Tələbənin təcrübə hesabatı ilə bağlı verilən suallara cavabına görə | 0-20 |
| | **Cəmi** | **100** |

5.8. Təcrübə hesabatının müdafiəsi səviyyəsinə görə tələbə maksimal 50 baldan ən azı yarısını toplamalıdır.

5.9. Təcrübəçi tələbə təcrübənin həm tədris, həm də istehsalat (pedaqoji) növlərindən ayrı-ayrı qiymətləndirilir. Hər bir təcrübə növü üzrə tələbə ən azı 51 bal topladıqda müvəffəq qiymət almış hesab olunur.

5.10. Təcrübə komissiyasının hər bir üzvü, təcrübəçini yuxarıdakı meyarlara görə müstəqil qiymətləndirir. Komissiya sədri hər bir təcrübəçi haqqında komissiya üzvlərinin qiymətləndirmə nəticəsini toplayıb, qiymətləndirmədə iştirak etmiş komissiya üzvlərinin sayına bölərək, təcrübəçinin yekun qiymətini müəyyən və elan edir.

5.11. Tələbənin tədris təcrübəsi zamanı nümunə dərslərində metodist müəllimlərlə bərabər pedaqogika və psixologiya müəllimlərinin iştirakı zəruridir.

5.12. Tələbənin istehsalat (pedaqoji) təcrübəsindəki sınaq dərslərində universitetdən və məktəbdən olan təcrübə rəhbərləri iştirak edirlər.

5.13. Tələbə tədris və istehsalat (pedaqoji) təcrübələrindən ayrı-ayrılıqda müvəffəq qiymət aldıqda təcrübə hesabatını hazırlayaraq Təcrübə komissiyasına təqdim etmək hüququ əldə edir.

5.14. Tələbə tədris, istehsalat (pedaqoji) təcrübələrindən uğurla keçdikdən sonra təcrübə hesabatını hazırlayır və qəbul olunması üçün Təcrübə komissiyasına təqdim edir. Tələbə Təcrübə komissiyasında minimum 51 balı toplamadıqda və ya hesabatı hazırlayıb təqdim edə bilmədikdə, təcrübə müdafiəsində iştirak edə bilmədikdə ona növbəti dövrdə (tədris ilinin sentyabr-oktyabr və ya dekabr aylarında) təkrar olaraq Təcrübə Komissiyasına hesabatını təqdim etmə hüququ verilir.

Scanned with CamScanner

5.15. Təcrübənin hər hansı növündən uğursuz olan tələbə, həmin növ üzrə təcrübəni növbəti tədris ilində kredit dəyərini ödəməklə yenidən keçməlidir. Tədris təcrübəsindən keçməyən tələbə istehsalat (pedaqoji) təcrübəsinə, istehsalat (pedaqoji) təcrübəsini keçməyən tələbə isə təcrübə hesabatının müdafiəsinə buraxılmır.

5.16. Təcrübənin hər iki növündən və hesabatı üzrə Təcrübə komissiyasından müvəffəq (51 bal və daha çox) nəticə əldə etmiş tələbə təcrübə semestrini uğurla tamamlamış hesab olunur.

5.17. Universitetdən məzun olmuş şəxsin diplomuna əlavədə aşağıdakı kimi qeyd olunur:

- Tədris təcrübəsi – kredit miqdarı - 15, aldığı qiymət - hərflə və balla;
- İstehsalat (pedaqoji) təcrübəsi-kredit miqdarı - 7.5, aldığı qiymət - hərflə və balla;
- Təcrübə hesabatının hazırlanması və Təcrübə komissiyasında müdafiəsi - kredit miqdarı - 7.5, aldığı qiymət - hərflə və balla.

5.18. Tədris və istehsalat (pedaqoji) təcrübəsi üçün ayrı-ayrılıqda nəzərdə tutulmuş saatların 25 faizindən çoxunda iştirak etməyən tələbə müvafiq təcrübə növü üzrə qaib limitinə düşmüş hesab olunur və həmin təcrübə növü üzrə qiymətləndirilməsi aparılmır.

5.19. Təcrübədə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan tələbə təkrarən təcrübədən keçməlidir.

5.20. Təcrübədə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan tələbələrin yenidən təcrübə keçmə vaxtı universitet tərəfindən müəyyən edilir. Səbəbindən asılı olmayaraq, təcrübədə iştirak etməyən və (və ya) təcrübədən qeyri-müvəffəq qiymət alan tələbənin təkrarən təcrübədə iştirakı ödənişlidir. Bu zaman ödənişin məbləği ali təhsilin bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələrə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na və orta ixtisas təhsili pilləsində təhsil alan tələbələrə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun olaraq müəyyən edilir.

5.21. Bu Əsasnamənin 3.15-ci bəndinə uyğun olaraq təcrübəsi tanınan tələbənin qiymətləndirilməsi universitetin müəyyən etdiyi qaydaya uyğun olaraq Təcrübə komissiyası tərəfindən aparılır.

## 6. Maddi təminat

6.1. Təqaüd alan tələbələrin təcrübə müddətində təqaüdləri saxlanılır.

6.2. Təcrübə universitetə təhsilalanlara dövlət sifarişi üzrə və dövlət hesabına büdcədən ayrılan vəsaitlər və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

6.3. Universitetdə təcrübəyə rəhbərliyə görə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiasının 3 sentyabr 2024-cü il tarixli KQ-12 nömrəli qərarı ilə təsdiq edilən professor-müəllim heyətinin tədris işi vaxtı normasına uyğun olaraq təcrübə rəhbərinə dərs yükü ayrılır.

6.4. Təcrübə müddətində işəgötürənlə tələbə arasında müddətli əmək müqaviləsi bağlanıla bilər. Bu halda işəgötürən tərəfindən qanunvericiliyə uyğun olaraq, təcrübə keçən tələbəyə əməkhaqqı ödənilir və icbari ödənişlər edilir.

6.5. Təhsil müəssisəsi yerləşdiyi şəhərdə (rayonda) tələbəni təcrübə bazası ilə təmin etmədiyi halda, tələbənin həmin universitetin yerləşdiyi ərazidən kənarda və ya xarici ölkədə təcrübə keçməsi ilə bağlı nəqliyyat və mehmanxana xərclərini ödəyir. Təcrübə tələbənin təklifi əsasında universitetin yerləşdiyi şəhərdən (rayondan) kənarda və ya xarici ölkədə keçirildiyi halda, nəqliyyat və mehmanxana xərcləri onun tərəfindən ödənilir.

6.6. Müstəsna hallarda tələbənin əsaslandırılmış müraciəti olduqda təcrübəçi tələbə təhsil müəssisəsinin yerləşdiyi şəhərdən (rayondan) kənarda yalnız ADPU və onun filiallarının olduğu şəhərlərdə təcrübə keçə bilər. Bu zaman ADPU-nun tələbəsi filialın yerləşdiyi şəhərdə (rayonda) təcrübə keçmək istədikdə müvafiq ixtisas üzrə filialda kadr hazırlığının aparılması və təcrübəyə tələbələrin getməsi də nəzərə alınır.

Scanned with CamScanner

## 7. Yekun müddəalar

7.1. Bu əsasnamə Universitet Elmi Şurasının qərarı ilə qəbul edilir, rektorun əmri ilə qüvvəyə minir. Bu əsasnaməyə əlavə və dəyişikliklər eyni qaydada həyata keçirilir.

7.2. Bu əsasnamənin əlavəsi olan tədris təcrübəsi zamanı keçirilən nümunə dərsləri və onun məqsədləri (əlavə 1), Tələbələrin təcrübə (nümunə və sınaq) dərslərinin qiymətləndirmə forması (Əlavə 2), Təcrübə hesabatının (təqdimatının) hazırlanması qaydası (əlavə 3), Təcrübə komissiyası üzvünün qiymətləndirmə vərəqi (Əlavə 4), Təcrübə komissiyasının yekun qiymətləndirmə cədvəli (Əlavə 5), Təcrübə proqramı (Əlavə 6), Təcrübə gündəliyi (Əlavə 7), Təcrübə bazası ilə müqavilənin nümunəsi (Əlavə 8) və Təcrübə zamanı tanış olunacaq normatiq-huquqi sənədlər (Əlavə 9) əsas təcrübə sənədləridir.

Scanned with CamScanner

**Azərbaycan Dövlət Pedaqoji Universitetində**
**Tədris təcrübəsi zamanı keçilən nümunə dərsləri və onun məqsədləri**

Müasir kurikulumun tələblərinə əsasən dərsin mərhələləri mövcuddur. Ona görə də, dərsin motivasiya mərhələsinin düzgün müəyyənləşdirilməsi və şagirdlərin dərsə cəlb edilməsinə nümunə dərslərində diqqət edilməlidir.

1. **Dərsin planı:** Mövzunun adı, məzmun standartları (əsas və alt standartlar), dərsin məqsədi, təlim nəticələri, iş forması, iş üsulları, tədris resursları, inteqrasiyanın müəyyən edilməsi.
2. **Materiallar:** İstifadə olunacaq bütün materialların (dərsliklər, iş vərəqləri, rəqəmsal resurslar) əvvəlcədən müəyyənləşdirilməsi.
3. **Sinfin təşkili:** Öyrənməyi asanlaşdırmaq üçün sinfi dərsə hazır vəziyyətə gətirmək. Bura oturacaqların təşkili, texnologiyanın işlək vəziyyətinin təmin edilməsi və digər zəruri tədris vəsaitlərinin hazır olmasının yoxlanması daxildir.
4. **Motivasiya:** Dərsin səmərəli təşkili məqsədilə motivasiyanın mümkün 2 variantını hazırlamaq. Motivasiya qismində sual, qısa hekayə, video, açar söz və ya dərsin mövzusu ilə bağlı maraqlı fakt ola bilər.
5. **Məqsədlərin bölüşdürülməsi:** Təlim məqsədlərini aydın şəkildə ifadə etmək lazımdır ki, şagirdlər dərsin sonunda nə öyrənməli və nəyə nail olacaqlarını bilsinlər.
6. **Əvvəlki biliklərlə əlaqə:** Öyrənmədə davamlılıq yaratmaq üçün dərsin əvvəlki biliklərlə və ya əvvəlki dərslərlə əlaqələndirilməsi. Həmçinin tələbə fəndaxili, fənlərarası, eləcə də fənlərüstü inteqrasiyadan istifadə etmələri haqqında nəzəri biliklərə sahib olmalıdır.
7. Didaktogeniya, pedaqoji ünsiyyət texnologiyası və inklüziv siniflərdə işin təşkili məsələləri.

<u>**Təqdimat**</u>

8. **Məzmun çatdırılması:** Yeni məlumatların aydın və sistemli şəkildə təqdim edilməsi, müxtəlif tədris üsullarından (mühazirə, nümayiş, multimedia və s.,) istifadə olunması yolu ilə.
9. **İnteraktiv elementlər:** Şagirdləri maraqlandırmaq üçün sorğu və müzakirələr kimi interaktiv elementlərin daxil edilməsi.
10. **Vizual vəsaitlərdən istifadə:** Anlayışı artırmaq üçün qrafik, diaqram və video kimi əyani vasitələrdən istifadə edilməsi.
11. **Modelləşdirmə:** Təcrübəyə başlamazdan öncə tələbələrə ilk olaraq modelləşdirmə üzrə bacarıq və ya konsepsiyanın nümayiş etdirilməsi. Bunlar işlənmiş nümunələr və ya canlı nümayişlər vasitəsilə edilə bilər.
12. **Təcrübə fəaliyyətləri:** Şagirdlərin müəllimin rəhbərliyi ilə öyrəndiklərini tətbiq edə biləcəkləri strukturlaşdırılmış təcrübə fəaliyyətlərinin təmin edilməsi.

<u>**Müstəqil təcrübə**</u>

13. **Tapşırıqlar:** Öyrənməni möhkəmləndirmək üçün şagirdlərin müstəqil yerinə yetirə biləcəkləri tapşırıqların verilməsi diqqətdə saxlanmalıdır. Bu yaradıcı tətbiqetmə qismində ev tapşırığı, layihələr və ya fərdi təcrübə ola bilər.
14. **Monitorinq:** Şagirdlərin işinə nəzarət etmək və lazım olduqda kömək göstərmək üçün sinfin kontrolu.
15. **Həvəsləndirmə:** Şagirdləri suallar verməyə və çətinliklərlə qarşılaşdıqda kömək istəməyə təşviq etmə yolları.

<u>**Qiymətləndirmə**</u>

16. **Formativ qiymətləndirmə:** Dərs zamanı şagirdlərin dərketmə səviyyəsini ölçmək üçün viktorina, şifahi sorğu, müşahidə və s., kimi formativ qiymətləndirmə üsullarından istifadə edilməsi. Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) həyata keçirilməsi Qaydasının tələbinə uyğun olaraq, müvafiq, meyarlara əsasən qiymətləndirmənin aparılması, rüblük və səviyyələr üzrə qiymətləndirmənin tətbiqi.
17. **Summativ qiymətləndirmə:** Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) həyata keçirilmə Qaydasına əsasən ümumi öyrənməni qiymətləndirmək üçün summativ qiymətləndirmənin (test, layihə, təqdimat) tətbiqi.

Scanned with CamScanner

18. **Əks əlaqə:** Tələbələrə öz güclü tərəflərini və zəif tərəflərinin təkmilləşdirməsini təmin etmək üçün qiymətləndirmələr haqqında ətraflı rəy bildirilməsi.
19. **İcmal:** Dərsin əsas məqamlarının ümumiləşdirilməsi. Bu, sinif müzakirəsi, qısa xülasə və ya şagirddən öyrəndiklərini ümumiləşdirməyi xahiş etməklə edilə bilər.
20. **Refleksiya:** Şagirdləri öyrənmə prosesi və nəticələri haqqında düşünməyə həvəsləndirilməsi yolları. Bu, jurnal qeydləri, qrup müzakirələri və ya özünüqiymətləndirmə vərəqləri vasitəsilə ola bilər.
21. **Gələcək planlaşdırma:** Öyrənmədə növbəti addımların planlaşdırılması. Bu, yeni öyrənmə məqsədlərini müəyyən etmək, növbəti dərsləri planlaşdırmaq, bilik və bacarıqda müəyyən edilmiş hər hansı boşluqları aradan qaldırmağı əhatə edə bilər.

**<u>Effektiv dərslər üçün əlavə məsləhətlər</u>**

